*UOT 37.0*

***Həsən Arif oğlu İbrahimli***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
https://orcid.org/0009-0004-6867-1131

# TƏLİMƏ MƏSULİYYƏTLİ MÜNASİBƏT TƏRBİYƏSİNİN MƏZMUMU VƏ VƏZİFƏLƏRİ

***Гасан Ариф оглы Ибрагимли***
*докторант по программе доктора философии*
*Азербайджанская Государственная Академия Физического Воспитания и Спорта*

# СОДЕРЖАНИЕ И ЗАДАЧИ ВОСПИТАНИЯ ОТВЕТСТВЕННОГО ОТНОШЕНИЯ К ОБУЧЕНИЮ

***Hasan Arif Ibrahimli***
*doctorial student in the program of doctor of philosophy*
*Azerbaijan State Academy of Physical Education and Sports*

# CONTENT AND OBJECTIVES OF EDUCATION OF RESPONSIBLE ATTITUDE

**Xülasə**. Şagirdlərin dərslərdə, o cümlədən ümumtəhsil məktəblərində fiziki tərbiyə məşğələlərində uğurları xeyli dərəcədə onlarda təlimə məsuliyyətli münasibətin olub-olmamasından, məsuliyyətli münasibətin formalaşması səviyyəsindən asılıdır. Məqalədə təlimə məsuliyyətli münasibət tərbiyəsinin məzmunu və vəzifələrindən danışılır.

***Açar sözlər***: *münasibət, məsuliyyət, məsuliyyətli münasibət, təlim, şagirdlər, məsuliyyətli münasibət tərbiyəsinin vəzifələri*

**Резюме**. Успешность учащихся на уроках, в том числе и на уроках физической культуры в общеобразовательных школах, во многом зависит от того, ответственно они относятся к обучению или нет, от уровня сформированности ответственного отношения. В статье говорится о содержании и задачах воспитания ответственного отношения к обучению.

***Ключевые слова:*** *отношение, ответственность, ответственное отношение, обучение, учащиеся, задачи воспитания ответственного отношения*

**Summary.** The success of students in the classroom, including physical education lessons in secondary schools, largely depends on whether they are responsible for learning or not, on the level of formation of a responsible attitude. The article talks about the content and tasks of educating a responsible attitude to education.

***Key words:*** *attitude, responsibility, responsible attitude, education, students, responsibilities of cultivating a responsible attitude*

Təlimə məsuliyyətli münasibətin tərbiyə olunması üzrə işin məzmununun komponentlərinin müəyyən edilməsi böyük əhəmiyyət daşıyır.

Prof. A.O. Mehrabov, Ə.M. Abbasov və b. "Pedaqoji texnologiyalar" kitabında yazırlar: "Təlim prosesinin əsasını təşkil edən və bir birinə üzvü əlaqədə olan məqsəd, məzmun, forma, metod və vasitə kimi komponentlərin ümumi vəzifəsi böyüyən gənc nəsli kamil insan kimi formalaşdırmaqdır. Kamil insan ən yüksək insani keyfiyyətləri, mənəvi dəyərləri özündə cəmləşdirən və fəaliyyət prosesində ona əməl edən şəxsiyyətdir. O, təbiət, cəmiyyət və insan təfəkküründə gedən proseslərdən baş çıxarır, dünyanın

qanunauyğun inkişaf və dəyişmə istiqamətlərini bilir, hadisələrin gedişinə təsir göstərməyi və onlardan qarşılıqlı faydalanmağı, insanlara xeyir verməyi bacarır, həmişə, hər yerdə haqqın, ədalətin, həqiqətin qoruyucusu, insanlıq etalonu kimi çıxış edir". Bu keyfiyyətlərə malik insanların yetişdirilməsi, böyüyən nəslə nələri, necə və nə qədər öyrətməyi və həyata keçirilməsi üçün təhsilin məzmunu və metodları təlim prosesinin aparıcı dayaqları kimi funksiyaları yerinə yetirir" (1, s. 339)

Apardığımız uzun müddətli müşahidə və təcrübələrə əsaslanaraq təlimə məsuliyyətli münasibət tərbiyəsinin məzmununu, komponentlərini aşağıdakı kimi müəyyənləşdirmək mümkündür.

Birinci qrup komponentlərə öyrənmənin (təlimin) tərkib hissələri – məqsəd, məzmun, iradi səy, öyrənmə, oxuma qabiliyyəti, öyrənmənin nəticələri daxildir.

İkinci qrup komponentlərə münasibətlə əlaqədar məsələlər – məqsədə, məzmuna, tələbənin özünün idrak fəallığına, təlim əməyinə, özünün qabiliyyəti və bacarığına, öyrənmənin nəticələrinə münasibətini bildirən tərkib hissələri aiddir.

Üçüncü qrup komponentlərə ideya-siyasi, mənəvi-iradi, məzmunluluq, təlim əməyi və bu əməyin stimulları, çətinlikləri, hissi-emosional vəziyyətləri daxil etmək olar.

Şagirdlərdə təlimə məsuliyyətli münasibət tərbiyəsi üzrə işdə bu üç qrup komponentlər bir-biri ilə sıx vəhdətdə baş verir. Bunlar fəaliyyət prosesində bir-birini tamamlayır.

Şagirdlərdə təlimə məsuliyyətli münasibət tərbiyəsi üzrə işə dair əldə etdiyimiz materialların təhlilindən görünür ki, hansı komponentlərə daha çox üstünlük verilə bilər. Yuxarıda göstərilən komponentlərə əsasən hər bir şagirdin təlimə məsuliyyətli münasibətini müəyyənləşdirmək zərurəti yaranır və bu təlim prosesində mühüm amilə və ya göstəriciyə çevrilir.

*İdeya-siyasi komponent.* Məktəbli dərk edir ki, cəmiyyətin xeyrinə, özünün və ailəsinin xeyrinə təhsil almaq, müəyyən bir peşəyə yiyələnmək üçün oxuyur.

*Məzmun komponenti.* Nümunə üçün deyə bilərik ki, məsələn Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tələbələrini bütün fənlər deyil, yalnız humanitar fənlər, bədən tərbiyəsi, seçdiyi idman növü maraqlandırır, bu sahədə nailiyyətlər əldə etməyə çalışırlar. Şagirdlərə nəzəriyyə, təcrübə, biliklərin təcrübəyə tətbiqi xoş gəlir, yeni proqram və materialları mənimsəməyə çalışırlar.

Təlim prosesində ümumtəhsil məktəblərində tədris olunan ayrı-ayrı fənlər (xüsusən fiziki tərbiyə məşğələləri) üzrə dərslərdə, yeri gəldikcə, *şəxsiyyətin məsuliyyətinə və mənəvi borcuna dair mütəfəkkirlərin fikirlərinə, borc və məsuliyyətin konkret təzahürünə aid hadisələrə müraciət olunması* məsləhət bilinir. Bu baxımdan Antuan de Sent – Ekzuperiyə əsaslanmaq faydalıdır. Məşhur fransız yazıçısı Antuan de Sent – Ekzuperi insan həyatında məsuliyyətin rolunu son dərəcə yüksək qiymətləndirirdi. Yazıcı qəzaya uğrayan və sonradan gərgin səy və çətinliklə And qarları əsirliyindən qurtulmuş dostu Qiyomenin hünərini təcəssüm etdirərək yazırdı: "Onun əzəməti - məsuliyyəti dərk etməsindədir. O özü üçün, poçt üçün, onun qayıdacağına inanan yoldaşları üçün cavabdehdir. Onların kədəri və ya sevinci onun əlindədir. O hər şey üçün "orada, aşağıda, canlı adamlar arasında yaranan şeylər üçün cavabdehdir, o, yaradıcılıqda iştirak etməlidir. O bəşəriyyətin taleyi üçün cavabdehdir - axı, bu talelər onun da əməyindən asılıdır.

*Mənəvi-iradi səy komponenti.* Tədris ilini müvəffəqiyyətlə başa vurmaq istəyi; yaxşı qiymətlər almağa inam; şagirdlər lazım gəldikdə imtahanlara hazırlaşarkən kömək göstərilməsini xahiş edir; onun fəaliyyətində qətiyyətlilik, dözümlülük, diqqətlilik təzahür edir; çətin tapşırıqları yerinə yetirməyə çalışır; bilmədiklərini soruşmaqdan utanmır; hər hansı bir irada dərhal reaksiya verir; təlim-tərbiyə müvəffəqiyyətini obyektiv və düzgün qiymətləndirir; yoldaşlarına münasibəti yaxşıdır, yeri gələndə onlara kömək göstərir.

*Tədris-əmək komponenti.* Şagird tədris tapşırıqlarını yerinə yetirərkən səy, səliqə, müstəqillik, təşkilatçılıq nümunəsi göstərir; tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə çalışır; əlavə məşğul olur, məşq edir, müvafiq kafedraların nəzdində fəaliyyət göstərən dərnəklərdə iştirak edir; gün rejimini gözləyir; müəyyən işlərdə, idman avadanlıqlarının səliqəyə salınmasında müəllimə kömək göstərir, öz əməyini təşkil etməyi və tədris işinə nəzarət etməyi bacarır, əlavə ədəbiyyatları oxuyur; özünütəhsillə məşğul olur; təlimdə geri qalan yoldaşlarından özköməyini əsirgəmir.

Təlimə münasibətin tərbiyə olunması üzrə fəaliyyət ümumtəhsil məktəblərinin pedaqoji prosesinin tərkib hissəsidir. Bu tərbiyənin məzmunu, forma və metodları kamil insanın formalaşdırılması kimi mühüm prosesə tabe olur. Deməli, praktik həyata keçirilən təlim-tərbiyə işinin tərkib hissəsi olduğuna görə bu iş bütövlükdə pedaqoji prosesin təkmilləşdirilməsinə imkan və şərait yaradır.

Hər hansı fəaliyyətin uğurla nəticələnməsi üçün onun qarşısında dayanan məqsəd aydın olmalı, bu məqsədin həyata keçməsinə kömək göstərən məsələlər düzgün müəyyənləşdirilməlidir.

Fikrimizi əsaslandırmaq üçün K.D. Uşinskiyə müraciət edək: "Yeni binanın bünövrəsini qoyarkən nə tikmək istədiyini bilməyən arxitektor haqqında siz nə deyə bilərsiniz; o bilmir ki, tikdiyi bina həqiqət və məhəbbət allahına həsr olunmuş məbədgahdır ki, içərisində rahat yaşamaq üçün sadəcə evdir ki, başqa yerdən gələnlərin nəzərini cəlb etmək üçün yaraşıqlı, lakin mənasız təntənəli darvazadırmı, haqq-hesabını bilməyən səyahətçiləri soymaq üçün olan yaraşıqlı mehmanxanadırmı, yeyinti şeyləri bişirmək üçün mətbəxdirmi, nadir şeyləri mühafizə etmək üçün muzeydirmi, yoxsa heç kəsə həyatda lazım olmayan hər cür köhnə şeyləri yığmaq üçün ambardırmı? Öz tərbiyəvi fəaliyyətinin məqsədini aydın və dürüst təyin edə bilməyən tərbiyəçi haqqında da eyni şeyləri demək lazımdır" (2, s. 81).

Yuxarıdakı fikir baxımından ilk növbədə şagirdlərdə təlimə məsuliyyətli münasibətin tərbiyəsi üzrə işin vəzifələrini müəyyənləşdirmək lazımdır. Həmin vəzifələri aşağıdakı şəkildə formalaşdırmaq mümkündür:

-şagirdlərin bilik, bacarıq və vərdişlərə dərindən yiyələnmələrinə nail olmaq;

-onların yüksək ixtisaslı kadrlar kimi yetişmələrini təmin etmək;

-oğlan və qızlarda məsuliyyət hissini inkişaf etdirmək;

-təlim və idraki fəaliyyətin səmərəli təşkili üzrə bacarıq və vərdişlərin formalaşdırılması;

-onları demokratik və hüquqi dövlət quruculuğunda fəal iştirak etməyə hazırlamaq;

- dərsdə intizamın pozulmasına qarşı barışmazlıq;

-mənəvi əqidəni, milli vətənpərvərlik, milli ləyaqət, milli iftixar, milli mənlik kimi keyfiyyətlərin zənginləşməsi və təkmilləşməsini təmin etmək;

-vətənpərvərlik hisslərinin inkişafına nail olmaq;

-şagirdləri elmi yaradıcılığa, tədqiqatçılığa hazırlamaq;

-elmi biliklərin ictimai rolunun dərk olunması;

- biliklərə yiyələnmə prosesində idraki maraqların, qabiliyyətlərin, yaradıcılıq fəallığının və müstəqilliyinin inkişaf etdirilməsi;

-qazanılmış bilik və bacarıqları praktik tətbiqə nail olmaq;

-biliklərin müstəqil əldə etmək vərdişlərinin formalaşdırılması;

-idraki vəzifələrin kollektiv həllinə kömək göstərmək.

Bu vəzifələrin yerinə yetirilməsində bütün təlim-tərbiyə işinə kompleks yanaşma və ümumtəhsil məktəbində yaradılmış xoş əhval-ruhiyyə, psixoloji-mənəvi iqlim mühüm əhəmiyyət daşıyır. Bu baxımdan pedaqoji kollektivin müraciət etdiyi iş formaları ayrı-ayrı müəllimlərin fərdi təcrübəsi ilə əlaqələndirilməli, pedaqoji əmək ustalarının təcrübəsi professor-müəllim heyətinin nailiyyəti hesab olunmalıdır.

**Problemin aktuallığı**. Təlimə məsuliyyətli münasibət həmişə aktual olmuşdur.

**Problemin yeniliyi**. Fiziki tərbiyə məşğələlərində ümumtəhsil məktəbləri şagirdlərinin təlimə məsuliyyətli münasibəti diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılardan ötrü maraqlı olacaqdır.

**Ədəbiyyat**:
1. Mehrabov, A.O. Pedaqoji texnologiyalar. / A.O. Mehrabov, Ə.M. Abbasov, Z.Z. Zeynalov. -Bakı: Mütərcim, 2006, 372 s
2. Uşinski, K.D. Seçilmiş pedaqoji əsərləri. / K.D. Uşinski. -Bakı: Azərnəşr, - 1953.

**E-mail**: hasan.ibrahimli@sport.edu.az
**Rəyçilər**: *ped.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
Redaksiyaya daxil olub: 03.07.2023